## 2017-ci ilin xronikası

18 yanvar tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev dünya bazarında təhlükəsizlik texnikası avadanlığı sahəsində lider olan Böyük Britaniyanın tanınmış "Smiths Detection" texnologiya qrupuna daxil olan Almaniyanın "Smiths Heimann GmbH Wiesbaden" şirkətinin nümayəndə heyəti ilə görüşüb. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev "Smiths Detection" şirkəti ilə son 5 ildə həyata keçirilən mükəmməl əməkdaşlığı yüksək qiymətləndirib. Bildirilib ki, bu əməkdaşlıq çərçivəsində "Smiths Detection" şirkəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini yüklərin yoxlanılması üçün 11 müasir rentgen kompleksilə təmin edib. Rentgen kompleksləri Azərbaycan sərhədlərində qadağan olunmuş malları aşkar etmək üçün yük avtomobilləri və dəmir yollarında yoxlamalar aparılmasında istifadə olunur.

18 yanvar tarixində Bakı Baş Gömrük İdarəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən Dövlət Gömrük Komitəsinə sərhədkeçmə prosesində sanitar və fitosanitar nəzarətinə düşən malların müayinə edilməsi məqsədilə yeni avadanlıqlar təqdim olunub. Təqdimat mərasimində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Qulam İsakzai, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard və digər rəsmi şəxslər ştirak edib. Yeni avadanlıqlar Dövlət Gömrük Komitəsinə "Azərbaycan və Gürcüstan arasında "Sınıq Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində təqdim edilib. Xatırladaq ki, layihə Avropa İttifaqının maliyyə dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən birgə icra olunur.



18-26 yanvar tarixlərində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) Bakı Regional Ofisində bu qurumun "Qış məktəbi" təqaüd proqramı üzrə təlim keçirilmişdir. Tlimdə Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatlarının müxtəlif ali təhsil müəssisələrinin, eləcə də Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri iştirak etmişlər. Təlimi Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi Katibliyinin rəhbəri Mixail Kaşubski, eləcə də Avstraliyanın Çarlz Stert Universiteti, ABŞ-ın San-Diyeqo Universiteti, İtaliyanın Mexaniki və Mühəndislik Sənayesi Assosiasiyaları Federasiyasının mütəxəssisləri aparılmışdır. İştirakçılara "Sənaye perspektivləri baxımından tarif təsnifatı və qeyri-preferensial və preferensial mənşənin müəyyən edilməsi Qaydaları", "Beynəlxalq ticarət sövdələşmələri və sənədləşmə", "Maşın və insan intellekti: sərhəd mühitində təhlükələrin aşkarlanması ilə bağlı məlumatlılıq və qeyri-verbal ünsiyyətin təhlili" və s. mövzularda məruzələr oxunmuşdur. Qeyd edək ki, təlim Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Bakı Regional Ofisi ilə yanaşı, Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Avropa Regional Ofisində də keçirilmişdir.

25 yanvar tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin Gömrük İdarəsinin rəisi Pərviz Təqəbinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini söyləyən Səfər Mehdiyev bildirib ki, bütün sahələrdə, o cümlədən, gömrük sferasında qarşılıqlı əməkdaşlıq yüksək səviyyədədir. İstər gömrük xidməti rəhbərləri səviyyəsində, istərsə dəsərhəd-gömrük buraxılış məntəqələrində mütəmadi xarakter alan ikitərfli görüşlərin ölkələrimizin gömrük sahəsi üzrə mövcud əməkdaşlığının davamlı inkişafına müsbət təsirindən danışan Səfər Mehdiyev qarşılıqlı birgə fəaliyyətin bundan sonra da intensivləşdirilməsinin vacibliyini diqqətə çatdırmışdır.



25 yanvar tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev "Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının Konteyner Daşımalarına Nəzarət Qlobal Proqramı" çərçivəsində Azərbaycan Respublikasına işgüzar səfərə gələn Laos Xalq-Demokratik Respublikası (LXDR) Maliyyə Nazirliyinin Gömrük Departamentinin baş direktor müavini Somphet Sivonqksainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüdür. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Laos Xalq-Demokratik Respublikasının iqtisadiyyatın konkret sahəsi üzrə ilk rəsmi nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu ifadə etmiş, gömrük orqanları vasitəsilə yaradılan bu ilk əməkdaşlıq əlaqələrinin hər iki ölkənin digər sahələrdə də qarşılıqlı münasibətlərinin yaradılması işinə böyük töhfə verəcəyinə ümidlə baxdığını bildirmişdir. DGK sədri Azərbaycan gömrüyünün 25 il əvvəl yaranmasına baxmayaraq qısa müddət ərzində mühüm nailiyyətlər əldə etdiyini diqqətə çatdırmışdır. Komitə sədri hazırda Ümumdünya Gömrük Təşkilatı və gömrük sahəsində ixtisaslaşan digər beynəlxalq qurumların Bakıda aktiv fəaliyyət göstərən ofis və nümayəndəliklərinin mövcud olduğunu bildirib və bunu Azərbaycan gömrük orqanlarının işgüzar və səmərəli fəaliyyətinin nəticəsi kimi qiymətləndirib.



27 yanvar tarixində Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadi təhlükəsizlik: ticarətin asanlaşdırılması və mühafizəsi aspektləri" adlı elmi-praktiki konfrans keçirilmişdir. Konfransın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, prof. Aydın Əliyev, Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini, prof. Ziyafət Əsgərov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, prof. Ədalət Muradov, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya, Azərbaycan Respublikası Milli Məclisinin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə iştirak etmişlər.

27 yanvar tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Ukrayna Dövlət Fiskal Xidmətinin sədri Roman Nəsirovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşmüşdür. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri iki ölkə arasında mövcud əlaqələrdən söhbət açmış və Azərbaycan-Ukrayna əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır. Azərbaycan Gömrük Xidmətinin Ukrayna Dövlət Gömrük Xidməti ilə qarşılıqlı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu nəzərə çatdıran sədr bu baxımdan tərəflər arasında əlaqələrin inkişafının və inteqrasiyasının vacibliyini bildirmişdir. Ukrayna Dövlət Fiskal Xidmətinin sədri Roman Nəsirov Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 25 illiyi münasibətilə təbrik sözlərini ifadə edərək, eyni zamanda, Azərbaycana yenidən səfər etməsindən və burada hərtərəfli inkişafdan, eləcə də gömrük işində əldə edilən uğurlardan məmnun qaldığını söyləmişdir. Ukraynanın Azərbaycanla bütün sahələrdə, o cümlədən gömrük işində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirən Roman Nəsirov Azərbaycan Gömrük Xidmətilə xüsusən informasiya texnologiyalarının tətbiqi və kinoloji işlə bağlı təcrübə mübadiləsinin ümumi işə fayda verdiyini vurğulamışdır.

27 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini və Azərbaycan Dövlət Gömrük Komitəsinin ÜGT-nin çox fəal üzvlərindən biri olduğunu məmnunluqla qeyd etmişdir. Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycan iqtisadiyyatında, o cümlədən gömrük sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar artıq çox yaxşı nəticələr verməkdədir. O, ticarət dövriyyəsinin azalmasına baxmayaraq, toplanan gömrük rüsumlarının həcminin əvvəlki dövrə nisbətən artdığını vurğulamışdır. Prezident İlham Əliyev Azərbaycan gömrük sisteminin regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsində fəal rol oynadığını deyərək ölkəmizdə regional gömrük strukturlarının, o cümlədən tədris mərkəzinin fəaliyyət göstərməsinin əhəmiyyətini qeyd etmişdir. Dövlətimizin başçısı ümidvar olduğunu

bildirmişdir ki, Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanın ölkəmizə səfəri əlaqələrimizin genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

30 yanvar Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 25-ci ildönümü və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçirilən təntənəli yığıncaqda giriş sözü ilə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri öncə yubiley mərasiminə qatıldıqları üçün bir sıra dövlətlərin gömrük xidmətləri və müvafiq ali təhsil ocaqlarının nümayəndələrinə minnətdarlığını ifadə etmişdir. Aydın Əliyev xatırlatmışdır ki, 1995-ci ilin yanvarında Azərbaycan Prezidentinin yanında gömrük xidmətinin fəaliyyətinə dair keçirilən tarixi müşavirədən sonra, respublikada gömrük işinin inkişafına böyük təkan verilmiş, gömrük orqanlarında köklü kadr dəyişiklikləri aparılmış, Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yaranmış, dövlət büdcəsinin formalaşmasında gömrük orqanlarının rolu xeyli artırılmış, gömrük qanunvericiliyi bazasının yaradılmasına başlanılmış, hüquqi-normativ sənədlərin və gömrük işinə dair ilk dərsliklərin, tədris-metodiki vəsaitlərin hazırlanması həyata keçirilmiş, gömrük sahəsində iqtisadi göstəricilər yaxşılaşmış, maddi-texniki baza möhkəmləndirilmiş, elektron informasiya təminatı yaradılmış, qaçaqalçılığa və gömrük qaydalarının pozulmasına qarşı mübarizə gücləndirilmişdir. Çıxışının sonunda Komitə sədri diqqətə çatdırmışdır ki, bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Qürur duyuruq ki, ölkəmizdə müasir tələblərə cavab verən modern gömrük sisteminin yaradılması işi dövlətimiz tərəfindən daim dəstəklənir və bu sahədə əldə olunan uğurlar layiqincə dəyərləndirilir.

3 fevral tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrellin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Azərbaycanda fəaliyyət göstərən ən iri neft şirkəti kimi BP ilə gömrük orqanları arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açan Komitə sədri, bu istiqamətdə gömrük orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini, gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin daha operativ surətdə aparılmasını təmin etmək üçün ardıcıl tədbirlərin həyata keçirildiyini bildirmişdir. 25 yaşlı Azərbaycan Gömrüyünün keçdiyi inkişaf yoluna qısaca nəzər salan sədr gömrük orqanlarının peşəkar kadrların hazırlanması, gömrük işi sahəsində informasiya texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrin və əməkdaşlığın gücləndirilməsi, hüquqpozmalara qarşı mübarizə və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətlərdən də bəhs etmişdir. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsi sədri Aydın Əliyevə təşəkkür edən BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell ilk olaraq Azərbaycan Gömrük Xidmətinin yaradılmasının 25 illik yubileyi münasibətilə səmimi təbriklərini çatdırmış, "Əsrin müqaviləsi"ndən sonra ilkin neftin əldə olunması, bu istiqamətdə layihələrin uğurla həyata keçirilməsi yolunda BP şirkəti tərəfindən çox mühüm işlər görüldüyünü söyləmiş, ötən illər ərzində Dövlət Gömrük Komitəsi ilə birbaşa qurulan müsbət əlaqələrdən bəhs etmiş, qarşılıqlı əməkdaşlığı yüksək qiymətləndirmişdir.

7-8 fevral tarixlərində İran İslam Respublikasının Astara və Biləsuvar şəhərlərində İran İslam Respublikası və Azərbaycan Respublikası gömrük xidmətlərinin nümayəndələri arasında görüş keçirilmişdir. Tədbir Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Mərkəzi Gömrük İdarəsi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən baş tutmuşdur. İran tərəfini Gilan Vilayəti üzrə Gömrük İdarəsinin rəisi Məhəmməd Şahbazi, Astara Gömrük İdarəsinin rəisi Rəsul Omidiy və Beynəlxalq Əlaqələr İdarəsinin rəisi Əmir Həbibvənd təmsil etmişdir. Azərbaycan tərəfindən isə görüşdə Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev, Komitənin Xarici Əlaqələr İdarəsinin rəisi Dilavər Fərzəliyev və Astara Gömrük İdarəsinin rəisi Mirmahmud Miratayev iştirak etmişdir. Görüşdə iki ölkə arasında qarşılıqlı faydalı əlaqələrə toxunulmuş, o cümlədən iqtisadi-ticari münasibətlərdən

söhbət açılmışdır. Azərbaycan və İran gömrükçülərinin vaxtaşırı keçirilən görüşlərinin də qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə, iki ölkə arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi işinə töhfə verdiyi bildirilmişdir.




**14-16 fevral** tarixlərində Tailand Krallığının paytaxtı Bankoq şəhərində "Sərhədlərarası kağızsız ticarətin asanlaşdırılması və Cənubi və Mərkəzi Asiyada "bir pəncərə" sistemləri" mövzusunda seminar keçirilmişdir. BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UN ESCAP) təşkil etdiyi seminara Cənubi və Mərkəzi Asiya ölkələrinin ticarətin rəqəmsallaşdırılması üzrə islahatlarda iştirak edən yüksək rütbəli nümayəndələri qatılmışlar. İclasda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru, BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının Kağızsız Ticarət Komitəsinin üzvü İqbal Babayev təmsil etmişdir. Seminarda məqsəd Cənubi və Mərkəzi Asiya ölkələrində kağızsız ticarət və "bir pəncərə" sistemləri üzrə milli səviyyədə əldə olunan inkişafı dəyərləndirmək, sərhədlərarası kağızsız ticarətin asanlaşdırılmasında hüquqi və texniki çətinlikləri müzakirə etmək, Asiya və Sakit okean regionunun qabaqcıl təcrübələrini bölüşmək və rəqəmsal ticarət əlaqəliliyi sahəsində subregional əməkdaşlıq üzrə fəaliyyət planını sadələşdirmək olmuşdur.

**20-27 fevral** tarixlərində tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti Beynəlxalq Ziyarətçi Proqramı çərçivəsində Amerika Birləşmiş Ştatlarında səfərdə olmuşdur. Səfərdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov, Avtonəqliyyat Baş Gömrük İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsinin rəisi Telman Mehdiyev və Xaçmaz Gömrük İdarəsi rəisinin müavini Zal Zalov iştirak etmişlər. ABŞ Dövlət Departamentinin İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində Daxili Təhlükəsizlik və Gömrük və Sərhəd Mühafizəsi departamentlərinin dəstəyi ilə həyata keçirilmiş səfərdə məqsəd bu departamentlərin fəaliyyətilə tanışlıq olmuşdur. Azərbaycan tərəfinin ilk görüşü Vaşinqton şəhərində baş tutmuşdur. Görüş Daxili Təhlükəsizlik Departamentində Gömrük və Sərhəd Mühafizəsinin qərargahında Beynəlxalq Əlaqələr İdarəsi rəhbərinin müavini İan Sandersin rəhbərlik etdiyi nümayəndə heyətilə keçirilmişdir. Burada Azərbaycan nümayəndə heyətinə ABŞ-ın Gömrük və Sərhəd Mühafizəsinin fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Vurğulannışdır ki, bu gün Gömrük və Sərhəd Mühafizəsinin geniş səlahiyyətləri var. Gömrük və Sərhəd Mühafizəsinin əsas funksiyalarına - terrorizmə, qaçaqmalçılığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, kontrafakt məhsulların idxalının, qanunsuz miqrasiyanın, eləcə də ABŞ-a qadağan olunmuş bitki və heyvandarlıq məhsullarının

gətirilməsinin qarşısını almaq, fitosanitar və baytarlıq nəzarətini təmin etmək və ölkədə qanuni ticarətin inkişafına dəstək vermək daxildir.

**1 mart** tarixində Azərbaycan-Gürcüstan sərhədində, Sınıq Körpü sərhəd-keçid məntəqəsində "Azərbaycan və Gürcüstan arasında Sınıq Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsinin İdarəetmə Komitəsinin iclası keçirilmişdir. Xatırladaq ki, "Azərbaycan və Gürcüstan arasında Sınıq Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi Avropa İttifaqının maliyyə dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən birgə icra olunur. İclasın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev çıxış edərək Azərbaycan hökumətinin Avropa İttifaqı vəBMT-nin İnkişaf Proqramı ilə əməkdaşlığından bəhs etmişdir. Bu əməkdaşlığın daim diqqətdə saxlanıldığını söyləyən Komitə sədri tərəflər arasında əlaqələrin siyasi, iqtisadi, sosial, maliyyə, elmi-texniki və mədəni sahələri əhatə etdiyini vurğulamış, bundan sonra da qarşılıqlı fəaliyyətin, birgə əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu bildirmişdir. Diqqətə çatdırılmışdır ki, bu əməkdaşlıq gömrük işi sahəsində də yer almış və ötən dövr ərzində bir neçə mühüm layihənin həyata keçirilməsi respublikada müasir dünya standartlarına cavab verən müstəqil gömrük sisteminin qurulmasına öz töhfəsini vermişdir.



**3 mart** tarixdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Küveyt Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Ruminin başçılıq etdiyi nümayəndə heyətilə görüşmüşdür. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev ölkələrimiz arasında əlaqələrdən məmnunluqla söhbət açıb, əməkdaşlığın davamlı olacağına əminliyini ifadə etmişdir. Ölkə iqtisadiyyatının formalaşmasında mühüm rolu olan gömrük işinin daha səmərəli və şəffaf şəkildə qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verən Komitə sədri bu islahatların iş adamlarının çevik, səmərəli fəaliyyəti üçün mühüm imkanlar yaratdığını vurğulamışdır. O, eyni zamanda, turizmin ölkəmizdə qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu və milli iqtisadiyyatın inkişafı üzrə Yol Xəritəsində mühüm yer tutduğunu diqqətə çatdırmışdır. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin sədrinə təşəkkür edən Küveyt Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi ölkəmizdə səfir kimi fəaliyyət göstərməsindən şərəf duyduğunu bildirimişdir.



**7-9 mart** tarixlərində Vyetnamın Hanoy şəhərində Avrasiya regionu üçün tranzit, ticarətin asanlaşdırılması və "2030-Davamlı İnkişaf Proqramı" sahələrində əməkdaşlığın gücləndirilməsilə bağlı Yüksək Səviyyəli Toplantı keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Vyetnam hökumətinin nümayəndələri, BMT Baş Assambleyasının prezidenti, BMT İqtisadi və Sosial Şurasının sədri, Dənizə Çıxışı Olmayan Ölkələr Qrupunun rəhbəri, BMT Baş katibinin müavini və ali nümayəndəsi, Ümumdünya Gömrük Təşkilatının Baş katibi və digər rəsmi şəxslərin qatıldığı toplantının işi altı sessiya üzrə təşkil olunmuşdur.

**9 mart** tarixində Bakıda Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının "Potensialın gücləndirilməsi" layihəsi çərçivəsində "Böyük idman tədbirləri zamanı sərnişin və mal axınının idarə edilməsi" mövzusunda təlim keçirilmişdir. Təlimin açılış mərasimində çıxış etmiş Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəis müavini Rauf Məmmədov beynəlxalq tədbirlərin, kütləvi idman oyunlarının keçirilməsində, sıradan təşkilati məsələlərin idarəedilməsində ölkəmizin müvafiq orqanları və Dövlət Gömrük Komitəsi əməkdaşlarının kifayət qədər təcrübə topladığını bildirmişdir. Qeyd edilib ki, əldə olunan nailiyyətlərlə yanaşı, Avropada və dünyada bu sahədəki ən son yeniliklərlə tanış olmaq, bilik və bacarıqları təkmilləşdirmək baxımından adı çəkilən təlim gömrükçülər üçün xüsusi əhəmiyyət daşıyır. Şərq Tərəfdaşlığı Proqramının layihə rəhbəri Dariusz Mroviec Azərbaycana səfərindən məmnunluq duyduğunu bildirmiş və rəhbərlik etdiyi layihə barədə məlumat verərək təlimin gömrük orqanları üçün əhəmiyyətindən danışmışdır. İki gün davam edən təlim zamanı beynəlxalq elkspertlər Tadeusz Senda və Tomasz Mıchalak iştirakçılara kütləvi idman tədbirləri zamanı gömrük sərhədindən keçən idmançılar, jurnalistlər, sərnişinlər, mallar barədə müfəssəl qiymətləndirilmənin aparılması, resursların balanslaşdırılması və bölüşdürülməsi, idarəetmə strukturları, qurumlararası və beynəlxalq əməkdaşlıq, mümkün böhran vəziyyətlərinin idarə edilməsi və digər mövzularda məlumat verimişlər.

**28 mart** tarixində Xaçmaz Gömrük İdarəsinin Rusiya-Azərbaycan sərhədində yerləşən "Samur" sərhəd-keçid məntəqəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsi və Rusiya Federasiyası Federal Gömrük Xidməti Şimali Qafqaz Gömrük İdarəsinin əməkdaşları arasında növbəti işçi görüş keçirilmişdir. Görüşdə qarşılıqlı əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunmuş, ilkin məlumat mübadiləsi, yük nəqliyyat vasitələrinin sərhədkeçmə prosesinin sinxronlaşdırılması və digər sahələrdə səylərin artırılmasının vacibliyi vurğulanmışdır. Görüşdə son günlərdə Azərbaycandan Rusiya Federasiyasına ixrac edilən kənd təsərrüfatı məhsullarının mənşəyinin müəyyən edilməsi məqsədilə ekspertizaya

göndərilməsi və müvafiq ekspert rəylərinin yubadılması qarşı tərəfin diqqətinə çatdırılmış və bildirilmişdir ki, daşıdıqları yüklərə dair ekspertiza sənədləri adı ilə nəqliyyat vasitələrinin saxlanılması əlavə xərclərə, məhsulların sıradan çıxmasına, təyinat məntəqəsinə vaxtında çatmamasına səbəb olur. Rusiya nümayəndə heyətinin üzvləri bu məsələ ilə bağlı müvafiq qurumları məlumatlandıracaqlarını, bundan başqa, yaxın günlərdə kənd təsərrüfatı məhsullarının ekspertizasının qısa vaxt ərzində və operativ şəkildə həyata keçirilməsi məqsədilə bu sahədə ixtisaslaşmış ekspertlərin sərhəd-keçid məntəqələrində fəaliyyətə başlayacaqlarını diqqətə çatdırmışlar. Tərəflər qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsinin gücləndirilməsinin sərhədkeçmə proseslərinin sürətləndirilməsinə, ümumi işə fayda verəcəyinə əminliklərini ifadə etmişlər.




**30 mart** tarixindən Asiya İnkişaf Bankının risklərin idarə olunması və gömrük-məlumat mübadiləsi üzrə mütəxəssislərinin Bakıya səfəri başlamışdır. Səfər Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı çərçivəsində Asiya İnkişaf Bankı tərəfindən təşkil olunmuşdur. Məqsəd "Avtomatlaşdırılmış gömrük tranzit sistemi" pilot layihəsində Azərbaycan, Gürcüstan və Qazaxıstanın iştirakı ilə bağlı müzakirələr aparmaq olmuşdur. Ekspert qrupuna daxil olan mütəxəssislər - Nayjel Mur və Vibon Çaojirapant artıq səfərin ilk günü Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində görüşlər keçirmişlər. Komitənin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi, Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi və Xarici Əlaqələr İdarəsində təşkil olunan görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr və fikir mübadiləsi aparılmışdır. AİB-nin ekspertləri Dövlət Gömrük Komitəsində "Hədəf" Mərkəzinə də baxış keçirib, gömrük xidmətinin müasirləşdirilməsi layihələri ilə tanış olmuşlar.

**3 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin gələcək fəaliyyətilə bağlı üçtərəfli texniki görüş keçirilmişdir. Görüşdə Azərbaycan, Gürcüstan və Türkiyənin gömrük, nəqliyyat, dəmir yolları və sərhəd qurumlarının mütəxəssisləri iştirak etmişlər. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin artıq tamamlanma ərəfəsində olduğu və tezliklə fəaliyyətə başlayacağı üçün gömrük sahəsindəki məsələlərin də həlli istiqamətində müvafiq işlərin görüldyünü bildirmişdir. O vurğulamışdır ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti yük və sərnişin daşımada beynəlxalq əhəmiyyətli bir layihədir və regionun inkişafında mühüm rol oynayacaq.



6 aprel tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsi rəhbərliyinin, İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin nümayəndələri ilə Rusiya Federasiyası Federal Gömrük Xidməti və Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin nümayəndələri arasında görüş keçirilmişdir. Rusiya Federasiyası Federal Gömrük Xidmətinin Ticarət Məhdudiyyətləri, Valyuta və İxrac Nəzarəti İdarəsi rəisinin birinci müavini Andrey Ryazanov iki ölkənin gömrük xidmətləri arasında mövcud əməkdaşlığı müsbət qiymətləndirmişdir. Nümayəndə heyətinin rəhbəri qeyd etmişdir ki, tərəflər arasında vaxtaşırı keçirilən görüşlər və Azərbaycana budəfəki səfər məhz qarşılıqlı əlaqələrin davamlı inkişafına xidmət edir. Rusiyalı qonaq kənd təsərrüfatı məhsulları mövsümünün başlaması ərəfəsində belə bir görüşün keçirilməsinin ticarətin sürətli həyata keçirilməsində, meyvə-tərəvəz məhsullarının daşınması zamanı yaranan problemlərin vaxtında aradan qaldırılmasında mühüm rol oynayacağına əminliyini ifadə etmişdir.

10 aprel tarixində Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sadıxlı" gömrük postunda Azərbaycan və Gürcüstan gömrük xidmətləri nümayəndə heyətlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan nümayəndə heyətinə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Gürcüstan nümayəndə heyətinə isə bu ölkənin Maliyyə Nazirliyinin Gəlirlər Xidməti rəisinin müavini Vaxtanq Laşkaradze rəhbərlik etmişdir. Görüşdə iki ölkə arasındakı əlaqələrin strateji tərəfdaşlıq, mehriban qonşuluq prinsiplərinə söykəndiyi, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və qarşılıqlı münasibətlərin güclənməsində gömrük orqanlarının da mühüm rol oynadığı vurğulanmışdır. Görüşün əsas mövzusu isə bir müddətdir müzakirə olunan Azərbaycan tərəfdə "Sadıxlı", Gürcüstan tərəfdə isə "Mtıkvari" gömrük postlarının əsaslı şəkildə yenidən qurulması və ya yeni gömrük postunun inşa edilərək istifadəyə verilməsi olmuşdur. Belə ki, son illərdə hər iki ölkənin turizm potensialının güclənməsi, bayram günləri ərəfəsində qarşılıqlı səfərlərin sayının artması, kənd təsərrüfatı məhsullarının mövsümü ilə əlaqədar olaraq ilin müxtəlif dövrlərində iki ölkə arasındakı sərhəd-gömrük keçid məntəqələrində, xüsusilə də "Sınıq Körpü" sərhəd gömrük keçid məntəqəsində sərnişinlərin və nəqliyyat vasitələrinin nisbətən sıxlığı müşahidə olunmaqdadır. Yeni gömrük postlarının fəaliyyətə başlaması isə bu problemin həllində mühüm addım kimi qiymətləndirilir.

12 aprel tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın baş katibi Altay Əfəndiyev ilə görüşmüşdür. DGK sədri Aydın Əliyev Azərbaycanda gömrük sahəsində aparılan son islahatlar barədə məlumat vermiş və əməkdaşlıq münasibətlərinə

toxunaraq bildirmişdir ki, Azərbaycan GUAM üzvü olan ölkələrlə bütün sahələrdə, o cümlədən gömrük sahəsində sıx əməkdaşlıqda maraqlıdır. O, indiyədək Bakı şəhərində GUAM çərçivəsində bir çox tədbirlərin keçirildiyini, həmçinin təşkilatın Ticarət və Nəqletməyə Yardım layihəsinin gömrük və sərhəd sahəsində bir sıra planların gerçəkləşdirilməsində, onların fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsində region üçün etibarlı platforma kimi çıxış etdiyini vurğulamışdır. GUAM-ın baş katibi Altay Əfəndiyev Azərbaycanın GUAM üzvü olan dövlətlər arasında bütün sahələrdə, eləcə də gömrük sahəsində əməkdaşlığın inkişafına töhfəsini məmnunluqla qeyd etmişdir. Ticarət və Nəqletməyə Yardım layihəsinin üzv ölkələr qarşısında mühüm vəzifələr qoyduğunu söyləyən baş katib vurğulamışdır ki, sözügedən layihə üzrə məsələlərin həlli müvafiq orqanlar arasında əlaqələri möhkəmləndirib, bu əlaqələr istər regional, istərsə də beynəlxalq miqyasda tərəqqiyə və təhlükəsizliyə töhfəsini əsirgəməyib.

**13 aprel** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Astara Gömrük İdarəsində Dövlət Gömrük Komitəsi və İran İslam Respublikasının Gömrük İdarəsinin nümayəndələri arasında işçi görüş keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Baba Salayev qonaqları salamlayaraq iki ölkə arasında gömrük sahəsində əməkdaşlıq əlaqələrindən məmnunluğunu ifadə etmişdir. Ölkələrimiz arasında əlaqələrin tarixi dostluq və qar-şılıqlı əməkdaşlığa əsaslandığı və bu cür görüşlərin gömrük sahəsində ikitərəfli əlaqələrə müsbət təsir göstərdiyi vurğulanmışdır. İran İslam Respublikasının Gömrük İdarəsi nümayəndə heyətinin rəhbəri, İranın Gilan Əyaləti üzrə Gömrük İdarəsinin baş direktoru Məhəmməd Şahbazi görüşün təşkilinə görə təşəkkürünü bildirmiş və İran İslam Respublikası Gömrük İdarəsinin sərhəd dövlətləri arasında ən çox azərbaycanlı həmkarları ilə əməkdaşlıq etdiklərini diqqətə çatdırmışdır.

**12 may** tarixində Türkiyənin Antalya şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin 6-ci iclası keçirilmişdir. Tədbirə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə gömrük xidmətlərinin nümayəndələri qatılmışdır. İclasda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Tədbirdə giriş sözü ilə çıxış edən Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin müstəşarı Cenap Aşçı ölkəsinin gömrük sistemində tətbiq olunan yeniliklər, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəstəyi ilə həyata keçirilən layihələr, türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığının gücləndirilməsi sahəsində görüləcək işlər barədə məlumat vermişdir. Sonra üzv dövlətlərin nümayəndə heyətləri rəhbərlərinin, eləcə də iclasa müşahidəçi kimi qatılan nümayəndə heyətləri rəhbərlərinin çıxışları dinlənilmişdir. Öz növbəsində, Azərbaycan nümayəndə heyətinin rəhbəri Səfər Mehdiyev çıxış edərək vurğulamışdır ki, türkdilli dövlətlər arasında bütün sahələrdə, o cümlədən ticarət-iqtisadi və xüsusilə də gömrük işi sahəsində mövcud əməkdaşlıq əlaqələri dinamik inkişaf edir. Qeyd olunmuşdur ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının istər gömrük işi, istərsə də digər sahələrdə əməkdaşlığı əhatə edən görüşləri artıq bir ənənə halına çevrilib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Gömrük Xidmətləri Rəhbərlərinin və Gömrük Əməkdaşlığı üzrə İşçi Qrupun iclaslarında müzakirə olunan məsələlər və qəbul olunan qərarlar üzv dövlətlər arasında ticarətin asanlaşdırılması, ticarət dövriyyəsinin artması, mal və nəqliyyat vasitələrinin, eləcə də tranzit qaydada daşınan yüklərin gömrük sərhədlərindən sürətli keçidinə nail olunması məqsədini daşıyır. Sonda isə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin 7-ci iclasının da gələn il Qırğızıstanda keçirilməsi qərara alınmışdır.




26 may tarixində Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sınıq Körpü" gömrük postunda Azərbaycan və Gürcüstan gömrük xidmətləri nümayəndə heyətlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan nümayəndə heyətinə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Gürcüstan nümayəndə heyətinə isə bu ölkənin Maliyyə Nazirliyinin Gəlirlər Xidməti Gömrük Departamentinin rəhbəri Vladimer Khundadze başçılıq etmişdir. Görüşdə Azərbaycan və Gürcüstan arasında iqtisadi, siyasi və mədəni əlaqələrin hazırkı durumu yüksək qiymətləndirilmiş, əlaqələrin davamlı inkişaf etdiyi və qarşılıqlı münasibətlərin güclənməsində gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunmuşdur. Bununla yanaşı, Azərbaycan və Gürcüstan gömrük orqanları arasında məlumat mübadiləsinə dair həm ikitərəfli, həm də GUAM çərçivəsində imzalanmış texniki təminat sənədlərinin icra vəziyyətləri müzakirə edilmiş, iki ölkə arasında ticarətin asanlaşdırılmasına töhfə vermək, mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin həyata keçirilməsini təmin etmək məqsədi daşıyan həmin sənədlərin əhəmiyyəti vurğulanmışdır.

31 may tarixində Naxçıvan şəhərində Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşları arasında hüquqpozmalara qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi mövzusunda işgüzar görüş keçirilmişdir. Sonra Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsində Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşları arasında işgüzar görüş keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Baba Salayev bildirmişdir ki, son illər iki ölkə arasında gömrük sahəsində qarşılıqlı əməkdaşlığın artırılması üçün mühüm işlər görülüb. Birgə əməkdaşlıq nəticəsində hüquqpozma hallarının azaldığını qeyd edən Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyi Gömrüklərin Mühafizəsi İdarəsinin rəisi Abdullah Soylu isə bu istiqamətdə işlərin daha da gücləndirilməsinin vacibliyini önə çəkmişdir. Görüşdə hüquqpozmalara qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq, qaçaqmalçılıqla birgə mübarizə, məlumat mübadiləsi, risk analizi, seminar və kursların təşkili və digər məsələlər müzakirə olunmuş, bu sahədə işlərin icrası üçün məsul şəxslər müəyyən olunmuşdur.

6 iyun tarixində Rusiya Federasiyasının Yessentuki şəhərində Azərbaycan və Rusiya gömrük xidmətlərinin gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə istiqamətində əməkdaşlığın gücləndirilməsi ilə bağlı işçi görüşü keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırovun və Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Anatoliy Serışevin rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak etmişdir.

Azərbaycan və Rusiya arasında bütün sahələrdə mehriban dostluq və qonşuluq əlaqələrinə söykənən əməkdaşlığın mövcud olduğu və bu əməkdaşlığın gömrük sahəsində də uğurla davam etdirildiyi bir daha vurğulanmışdır. Xüsusilə, ölkələrimiz arasında uzunmüddətli iqtisadi əlaqələrin hər iki tərəfin iqtisadi təhlükəsizliyi təmin edilməklə bundan sonra daha da inkişaf etdirilməsinin vacibliyindən bəhs olunmuşdur.

7 iyun tarixində Tbilisi şəhərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları üzrə konfransı və sərgisi keçirilmişdir. Konfrans-Sərgidə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Konfransı giriş sözü ilə Gürcüstan Respublikası Baş nazirinin müavini, Maliyyə naziri Dmitriy Kumsişvili və Maliyyə nazirinin birinci müavini, Gürcüstan Gəlirlər Xidmətinin rəhbəri Georgi Tabuaşvili açmışdır. Açılış mərasimində ÜGT-nin Baş katibi Kunio Mikuriya və Koreya Gömrük Xidmətinin nümayəndəsi Jong-Vuo Lee də nitq söyləmişdir. Təşkilat komitəsindən verilən məlumata görə 80 ölkədən 500-dən çox nümayəndənin iştirak etdiyi konfransda çıxış edən məruzəçilər ÜGT-nin İT Konfransının keçirilməsinin əhəmiyyətindən və gömrük işinin təşkilində informasiya texnologiyalarının rolundan ətraflı bəhs etmişlər. Gürcüstanın Gəlirlər Xidmətinin rəhbəri ölkəsinin gömrük xidməti ilə Azərbaycan gömrük xidməti arasında gömrük prosedurlarının sadələşdirilməsi üzrə həyata keçirilən innovasiya layihələrinin, o cümlədən iki gömrük orqanı arasında ilkin məlumat mübadiləsinin təşkil edilməsi layihəsinin əhəmiyyətini xüsusi vurğulamışdır. Məruzəçi, eyni zamanda GUAM çərçivəsində nəqliyyat və ticarətə yardım layihəsi çərçivəsində həyata keçirilən layihələr haqqında da konfrans iştirakçılarını məlumatlandırmışdır. ,Konfrans çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU) Baş katibii Umberto de Pretto ilə görüşmüşdür. Görüş zamanı Aydın Əliyev Umberto de Prettonu Baş katib seçilməsi münasibətilə təbrik edib və Azərbaycanla İRU arasındakı uzunmüddətli əlaqələrdən bəhs etmişdir. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU) Baş katibi Umberto de Pretto təbrikə görə təşəkkürünü bildirmiş və görüşdən duyduğu məmnunluğu ifadə etmişdir. Baş katib elektron məlumat mübadiləsi məqsədilə tətbiq edilən e-TİR və e-SMR layihələrindən bəhs edib və bu layihələrin artıq İran və Türkiyədə uğurla reallaşdırıldığını vurğulamışdır. Baş katib adıçəkilən layihələr çərçivəsində Azərbaycanla əməkdaşlıq etməkdən məmnunluq duyacaqlarını bildirmişdir. e-TİR və e-SMR layihələrinə qoşulmaq barədə verilən təklifi müsbət dəyərləndirən DGK sədri Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı respublikamızda həyata keçirdiyi islahatlar və layihələr barədə ətraflı məlumat vermiş, ölkə başçısının reallaşdırdığı proqramlar çərçivəsində Azərbaycanın tranzit potensialının artırılması, ölkəmiz vasitəsilə tranzit daşımaların asan və maneəsiz həyata keçirilməsi istiqamətində mühüm addımlar atıldığını bildirmişdir.



23 iyun tarixində Rusiya Federasiyasının Dərbənd şəhərində sərhədyanı gömrük buraxılış məntəqələrində yaranan problemlərin operativ həll edilməsi üçün məlumat mübadiləsinin aparılması və qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması üzrə tədbirlərin hazırlanması məqsədilə Azərbaycan və Rusiya gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilmişdir. Görüşdə Rusiya Federal Gömrük Xidmətinin Dağıstan Gömrüyünün, "Rusiya Dəmir Yolları" ASC-nin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin və "Azərbaycan Dəmir Yolları" QSC-nin nümayəndələri iştirak etmişlər. İşçi görüş zamanı gömrük sərhəd buraxılış məntəqələrindən meyvə-tərəvəz məhsullarının mövsümi daşımaları, yay tətili mövsümü və bayram günlərində nəqliyyat vasitələrinin sıxlığının aradan qaldırılmasına dair müzakirələr aparılmışdır. Görüşdə, həmçinin 3 iyul 2015-ci il tarixli "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması haqqında Protokol"un müddəalarının icrasının gedişatı və dəmiryolu nəqliyyatı ilə daşınan mal və nəqliyyat vasitələri barədə ilkin məlumatların mübadiləsinə dair müzakirələr də keçirilmişdir. Bununla yanaşı, meyvə-tərəvəz məhsulları üzrə Azərbaycan istehsalatçı-ixracatçıları tərəfindən müvafiq markalanma qaydalarına düzgün riayət edilməsinin zəruriliyi və müəyyən növ mallara münasibətdə gömrük orqanlarına təqdim edilən manifestlərin müvafiq qaydada tərtib edilməsinin əhəmiyyəti vurğulanmışdır.

3 iyul tarixində Urmiya şəhərində İran və Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşü keçirilmişdir. Səfərin ilk günü Azərbaycan Gömrük Xidmətinin nümayəndələri İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadət ilə görüşmüşlər. Vali bütün sahələrdə qarşılıqlı əlaqələrin, o cümlədən gömrük münasibətlərinin arzuolunan səviyyəyə çatdırılmasının hər iki ölkənin və xalqlarımızın maraqlarına xidmət etdiyini önə çəkərək müştərək görüşlərin əhəmiyyətindən danışmışdır. Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov İran İslam Respublikasının yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında ildən-ilə inkişaf edən münasibətlərin iki ölkənin qarşılıqlı əlaqələrinə müsbət təsir etdiyini vurğulamışdır. Urmiya şəhərində keçirilən İran-Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşündə İran tərəfdən Qərbi və Şərqi Azərbaycan vilayətləri gömrüklərinin rəisləri, rəis müavinləri, Biləsuvar, Astara, Ərdəbil, Culfa, və Poldəşt gömrük idarələrinin rəisləri, Urmiya Yol İdarəsinin tranzit məsələləri şöbəsinin müdiri və digər məsul şəxslər iştirak etmişlər.

**20 sentyabr** tarixində Türkiyənin İstanbul şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş ofisində bu təşkilatın iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev iştirak etmişdir. Elə həmin gün Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) gömrük məsələləri üzrə işçi qrupunun iclası keçirilmişdir. İclasda gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası, malların və nəqliyyat vasitələrinin buraxılışının ölçülməsi layihəsi və onun metodologiyası üzrə təcrübə mübadiləsinin aparılması, QDİƏT üzv ölkələrinin gömrük sahəsində əməkdaşlığının genişləndirilməsi, elektron ticarət məkanında gömrük əməliyyatlarının daha da inkişaf etdirilməsi və yenidən baxılması və QDİƏT ilə Ümumdünya Gömrük Təşkilatının əməkdaşlığı barədə məsələlər müzakirə edilmişdir. İşçi qrupu sonda bu məsələlərlə bağlı müvafiq sənəd hazırlamışdır.




**31 oktyabr - 3 noyabr tarixlərində** Kolumbiya Respublikasının Kartagena şəhərində Kolumbiya Beynəlxalq Ticarətdə Logistika Agentləri Federasiyasının (FITAC) 19-cu Beynəlxalq Konqresi və Amerika, İspaniya və Portuqaliya Peşəkar Gömrük Agentləri Assosiasiyası (ASAPRA) Baş Assambleyasının 48-ci Konqresi keçirilmişdir. Tədbirə dünya logistika və gömrük xidmətlərinin 350-dən çox əməkdaşı, Latın Amerikasından isə 500-dən çox iş adamı qatılmışdır. Sözügedən qurumların konqresində iştirak etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Kolumbiya Respublikasında səfərdə olmuşdur. Səfərin ilk günü Azərbaycan nümayəndə heyəti Kolumbiyanın paytaxtı Boqota şəhərinin hava limanında gömrük işinin təşkili, burada həyata keçirilən gömrük prosedurları, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və gömrük sisteminin iş prinsipi ilə yaxından tanış olmuşdur. Nümayəndə heyəti oktyabrın 31-də Kartagena şəhərində Kolumbiya Beynəlxalq Ticarətdə Logistika Agentləri Federasiyasının (FITAC) 19-cu Beynəlxalq Konqresi və Amerika, İspaniya və Portuqaliya Peşəkar Gömrük Agentləri Assosiasiyası (ASAPRA) Baş Assambleyasının 48-ci Konqresindən öncə təşkil olunan səlahiyyətli iqtisadi operatorlar institutu və logistika ilə bağlı sərginin açılış mərasimində iştirak etmiş və sərgi ilə yaxından tanış olmuşlar. Bununla yanaşı, nümayəndə heyəti səlahiyyətli iqtisadi operatorlar institutu və logistik şirkətlərin təmsilçiləri ilə görüşmüşdür. Görüş zamanı, gömrük işinin səmərəliliyinin artırılmasında, ticarətin asan və sürətli həyata keçirilməsində qarşılıqlı əməkdaşlığın və təcrübə mübadiləsinin önəmindən bəhs olunub.




**13 noyabr** tarixində Yaponiyanın paytaxtı Tokio şəhərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) 6-cı Texnologiya və İnnovasiya Forumu keçirilmişdir. Tədbirdə təşkilata üzv ölkələrin müxtəlif dövlət qurumlarını, elmi-tədqiqat institutlarını, bir sıra beynəlxalq təşkilatları və özəl sektoru təmsil edən 500-ə yaxın nümayəndə iştirak etmişdir. Azərbaycan Gömrük Xidməti forumda Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov və komitənin informasiya texnologiyaları üzrə əməkdaşı ilə təmsil olunmuşdur. Yaponiya Maliyyə nazirinin müavini Makoto Nagamine qonaqları salamlayaraq forumun işində uğurlar arzulamışdır. Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Texnologiya və İnnovasiya Forumunun sərhəd idarəçiliyi və gömrük mühafizəsi sahəsində son nailiyyətlər və texnoloji yeniliklər barədə səmərəli fikir mübadiləsi aparmaq baxımından uğurlu platforma olduğunu qeyd etmişdir. Üç gün davam edən forumun əsas mövzusu risk analizinin çevikliyinin və əhatəliliyinin təmin olunması, gömrük nəzarəti və rəsmiləşdirilməsinə sərf olunan vaxtın minimuma endirilməsi, gömrük ekspertizasının daha sürətli şəkildə aparılması və nəticələrinin vahid sistemə inteqrasiyası kimi məsələlər olmuşdur.



**14 noyabr** tarixində Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı Gömrük Xidməti Rəhbərləri Şurasının 8-ci iclası keçirilmişdir. Tədbirə Azərbaycan, İran, Qazaxıstan, Pakistan, Tacikistan, Türkiyə gömrük xidmətlərinin nümayəndələri qatılmışdır. İclasda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir. Toplantının açılış mərasimində Pakistan İslam Respublikası Baş nazirinin gəlirlər üzrə müşaviri, dövlət naziri Harun Axtar Xan, İqtisadi Əməkdaşlıq Təşkilatı Baş katibinin müavini Kənan Nəzərov və Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kuniyo Mikuriya giriş sözü ilə çıxış etmişlər. Mərasimdə gömrük xidmətlərinin üzləşdiyi problemlərin həllində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin gömrük xidmətləri arasında əməkdaşlığın rolu vurğulanmış, eləcə də gömrük məlumatlarının mübadiləsinin və potensialın gücləndirilməsinin əhəmiyyətinə toxunulmuşdur. Sonra iclasda nümayəndə heyəti rəhbərlərinin ölkə hesabatları dinlənilmişdir. Öz növbəsində, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev təqdimatla çıxış edərək Azərbaycan iqtisadiyyatında, eləcə də gömrük sahəsində son illər əldə olunan uğurlardan bəhs etmişdir.




**30 noyabr - 3 dekabr** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti noyabrın İsrail Dövlətinin Tel-Əviv şəhərində səfərdə olmuşdur. Nümayəndə heyətində DGK Gömrük Risklərinin Təhlili və Audit İdarəsinin rəisi, gömrük xidməti polkovniki Faiq Seyidov və həmin idarənin rəis müavini Razim Zamanov iştirak etmişdir. İsrailə səfər bu ölkədə GPS - elektron nəzarət və izləmə sisteminin iş prinsiplərilə tanışlıq, eləcə də GPS elektron kilidlərinin yeni modelləri ilə bağlı danışıqlar aparmaq üçün həyata keçirilmişdir. Məlumdur ki, Azərbaycan Respublikasının gömrük ərazisində 2013-cü ilin oktyabrından GPS elektron kilidlərindən istifadə olunur. Yük daşıyan nəqliyyat vasitələrinin yük yerləri Dövlət Gömrük Komitəsinin mobil gömrük bölmələri tərəfindən GPS elektron kilidləri ilə bağlanır. Məqsəd iki gömrük orqanı arasında malların daşınmasının, həmçinin nəqliyyat vasitələrinin hərəkətinin müəyyən olunmuş marşrut üzrə və müddət ərzində başa çatdırılmasına nəzarət etməkdir. Bununla, eyni zamanda, təhlükəsizlik təmin edilir və hüquqpozma hallarının qarşısı alınır. İsrailə səfər zamanı Azərbaycan nümayəndə heyəti "Beniş GPS" şirkətinin rəhbərliyi və mütəxəssisləri ilə görüşdə GPS elektron kilidlərinin daha səmərəli istismarı və istismar müddətində yaranan problemlərin həlli ilə bağlı təkliflər verib və müzakirələr aparmışdır. Nümayəndə heyəti həmçinin İsrail Gömrük Xidmətinin rəhbəri Avi Arditi ilə görüşmüşdür. Görüşdə iki ölkənin gömrük xidmətlərinin qarşılıqlı münasibətlərindən, gələcək perspektivlərdən bəhs edilmiş, əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin önəmi

vurğulanmışdır. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**14 dekabr** tarixində Belçika Krallığının Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 131-ci sessiyası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Cavad Qasımov və Komitənin Xarici Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Dilavər Fərzəliyev iştirak etmişdir. Sessiya zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Cavad Qasımov və Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti rəisinin müavini Vaxtanq Laşkaradze arasında görüş olmuşdur. Görüşdə iki ölkə arasındakı əlaqələrin strateji tərəfdaşlıq, mehriban qonşuluq prinsiplərinə söykəndiyi, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanmışdır. Gömrük sferasında qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilmiş, qarşılıqlı birgə fəaliyyətin bundan sonra da intensivləşdirilməsinin vacibliyi diqqətə çatdırılmış, gömrük prosedurlarının və ticarətin asanlaşdırılması, gömrük sərhəddindən malların və nəqliyyat vasitələrinin maneəsiz və operativ qaydada həyata keçirilməsi məsələləri müzakirə olunmuşdur.

